**Rasim Əfəndiyev**

# Azərbaycanın maddi mədəniyyət nümunələri



(Geyimlər)

Azərbaycan Dövlət Nəşriyyatı

Bakı – 1960

## Mətndə gedən rəsmlər müəllifindir

Geyimin tarixi də insan tarixi qədər qədimdir. İbtidai insanlar, bildiyimiz kimi, uzun müddət paltarsız gəzmişlər. Sonralar paltara olan ehtiyac nəticəsində onlar ovladıqları heyvanların dərisindən və ya ağac yarpaqlarından özlərinə geyim düzəltmişlər.

İnsanların paltar geymələrinə səbəb nə olmuşdur?

Dünyanın bir çox görkəmli alimləri bu suala müxtəlif cavab vermişlər. Bəziləri insan geyimini insan şüurunun inkişaf edib utanma qabiliyyətinin əmələ gəlməsi ilə, bəziləri isə insanda bəzəyə olan həvəs qabiliyyətinin inkişafı ilə əlaqələndirir. Sovet alimləri isə geyimin əmələ gəlməsini insanın özünü təbiətin soyuq və qeyri pis təsirlərindən qorumağa başlaması ilə izah edirlər.

Geyim öz yaranışından bəri böyük bir inkişaf yolu keçmişdir. Hələ Neolit dövründən başlayaraq, ibtidai insanlar əyirmə, hörmə və arxaik şəkildə olsa da, tikmə qabiliyyətinə malik olmuşlar.

Geyim əsas etibarı ilə iki: çiyin və bel geyimi hissələrinə bölünür. Çiyin geyimləri, adətən, sadəbiçimli və bel geyimlərinə nisbətən çox qədim yaranmışdır. Bel geyimləri isə sonralar nisbətən inkişaf etmiş və onlardan da alt tumanı və şalvar kimi geyimlər meydana gəlmişdir.

Geyim tərzlərinin əmələ gəlməsinə insanın get-gedə müxtəlif sənət və peşələrə yiyələnməsinin, habelə yaşadığı mühit və iqlimin böyük təsiri olmuşdur.

Ayrı-ayrı xalq geyimlərinin meydana çıxması bilavasitə insan cəmiyyətinin müxtəlif xalqlara ayrılması dövrü ilə əlaqədardır.

Xalq geyim və bəzəkləri (forması, rəngi, parçası və naxışları) bu və ya digər millətin əsrlər boyu yaranmış zövqünü, mədəniyyətini əks etdirir. Məsələn, yüksək irsə malik olan Azərbaycan xalq geyimləri bütünlüklə xalqımızın zövqünü, onun maddi-mədəniyyətinin ən mütərəqqi və gözəl nümunələrini özündə əks edərək, XIX əsrin ortalarına qədər inkişaf etmişdir.

Ümumiyyətlə, Azərbaycanın maddi-mədəniyyət tarixində geyim və geyim bəzəklərinin öyrənilməsi xalqımızın bədii zövqünün inkişafının və milli mədəniyyətinin mühüm bir sahəsinin öyrənilməsi deməkdir.

Mingəçevirdə və respublikamızın başqa yerlərində arxeoloji qazıntılar zamanı tapılmış bir sıra parça fraqmentləri göstərir ki, hələ eramızdan çox-çox əvvəl Azərbaycan ərazisində yaşayan xalqlar yüksək geyim mədəniyyətinə malik olmuşlar.

Naxışlı parça fraqmentləri və onlarla yanaşı tapılmış bəzəklər (sırğa, muncuq, qolbaq və s.) qədim Azərbaycan geyimi haqqında bizə lazımi qədər təsəvvür verməsə də, bu bəzəkləri gəzdirən və belə gözəl parçalardan paltar geyən bir xalqın zövq və mədəniyyətini nisbətən aydınlaşdırmış olur.

Azərbaycan ərazisində yaşayan xalqların bədii parçalardan geyimlər hazırladığı haqqında hələ eramızdan əvvəl V əsrdə yunan alimi Herodot (484-425) məlumat vermişdir.

O yazır ki, "bu yerlərin meşələrində elə ağaclar bitir ki, yerli əhali onların yarpaqlarını əzərək su ilə qarışdırır və bu məhlul ilə paltarlarına naxışlar vururlar. Bu naxışlar silinməyib parça köhnələnə qədər qalır»[1].

Azərbaycan xalq geyimləri tarixilik cəhətdən doğrudan da böyük və maraqlı inkişaf yolu keçmişdir.

Azərbaycan xalqının geyimləri haqqında XVI əsrə qədər əlimizdə heç bir konkret nümunə yoxdur. Lakin Azərbaycan geyim və bəzəklərini öyrənmək üçün əsas vasitələrdən - arxeoloji qazıntılar zamanı tapılmış parça hissələri və Azərbaycanda olmuş xarici səyyahların gündəliklərindəki faktlardan istifadə edərək az və ya çox dərəcsədə o dövrün geyimləri barədə fikir söyləmək olar. Bu cəhətdən hər hansı bir tədqiqatçıya təsviri sənət nümunələri kömək edə bilər.

Məlum olduğu kimi, qədim dövrlərdən başlayaraq, Azərbaycan xalqının geyimləri, tipləri, onların adət və məişəti heykəllərdə, divar rəsmlərində, minatürlərdə və sairədə əks etdirilmişdir. İndiyə qədər qalmış və ya tapılmış bu əsərlər Azərbaycan xalqının qədim geyimlərinin öyrənilməsində on qiymətli vasitələrdən biridir.

Tarixdən məlumdur ki, Azərbaycan eradan əvvəl VII əsrdə qüdrətli Midiya dövlətinin tərkibində idi. Bundan sonra ümumi «midiyalılar» sözü Azərbaycan ərazisində yaşayan bütün tayfalara aid edilmişdi.

«Azərbaycan, sonralar da Midiya dövlətinin iqtisadi və mədəni cəhətcə ən inkişaf etmiş vilayəti idi. Azərbaycanlılarla midiyalıların mədəniyyətindəki qarşılıqlı əlaqələr Midiya cəmiyyətinin maddi və mənəvi həyatının bir-çox sahəsində nəzərə çarpır»[2].

Beləliklə, vaxtilə yüksək mədəniyyətə malik olan Midiya tarixinin yaranmasında Azərbaycanın da böyük rolu olmuşdur. Bunu Sovet Azərbaycanında, həmçinin Cənubi Azərbaycanda aparılmış arxeoloji qazıntılar zamanı əldə edilmiş maddi-mədəniyyət qalıqları sübut edir. Tapılmış qızıl döşlük, bilərzik, üzük və s. bu kimi bəzək nümunələri həmin dövrdə sənətkarlığın nə qədər yüksək səviyyədə olduğunu göstərir. Bu bəzək şeyləri içərisində Mingəçevirdən tapılmış başı möhürlü üzüklər xüsusilə diqqəti cəlb edir. Bu möhürlərin üzərindəki şirlə vuruşan adam, nizə və qalxanlı döyüşçü (şəkil 1) və oda sitayiş edən şəxsin təsvirləri, hər şeydən əvvəl, o zamankı dövrüm geyimləri və insanların adətləri haqqında bizdə təsəvvür yaradır.

---

[1] В. В. Латышев. «Известия древних писателей о Скифии и Кавказе», т. I, СПБ, 1890, səh. 7.

[2] «Azərbaycan tarixi», Bakı, 1958, səh. 51.





Şəkil 1. Şəkil 2.

Maraqlı burasıdır ki, burada təsvir olunan geyim, silah həmin yerdən tapılmış və o dövrə aid edilən bəzək şeylərinin eynini Ekbatan və Suz abidələrində də görmək mümkündür. Bundan başqa, bu məxəzlərə bütünlüklə bənzəyən rəyə yunan alimi Strabonun (e. ə. 63-19) əsərlərində də rast gəlirik.

Lakin qeyd etmək lazımdır ki, Midiya abidələri də Assuriya və Misir abidələri kimi bəzək və zinət əsərləridir. Buradakı rəsmlər isə bütünlüklə saray əyanlarının, döyüşçü və ya xalq qəhrəmanlarının, yüksək təbəqəyə mənsub olan şəxslərin həyat və məişətini təsvir edir. Elə buna görə də aşağı təbəqəyə mənsub olan adamların geyimi haqqında bizim heç bir əyani təsəvvürümüz yoxdur.

Beləliklə, yuxarıda qeyd etdiyimiz məxəzlərə əsaslanaraq deyə bilərik ki, bu dövrdə kişilər, beldən nazik qurşaq və dəri kəmərlə bağlanan uzun və enli ətəkləri yerə qədər uzanan don geyərdilər (şəkil 2). Yunan alimi Strabonun dediyinə görə, yeriyəndə maneçilik törətməməsi üçün, bu geyimlərin ətəklərini qatlayıb qurşaqlarına bərkidərlərmiş.

Varlı şəxslər bu donun üstündən nisbətən gödək (xələti andıran) örtük geyərlərmiş. Tarixi məxəzlərin göstərdiyinə görə, bu dövrdəki geyimlər, əsasən, ağ və açıq-boz rəngdə olurmuş.



Şəkil 3

Ruhanilər al-qırmızı paltar geyərmişlər. Midiyalıların ayaqqabıları XIX əsrdə Azərbaycanda kütləvi geyilən başmaqları xatırladır, lakin öz zərif biçimi və dabanlı olması ilə ondan fərqlənirdi. Midiyalıların papaqları xüsusilə çox maraqlıdır. Bu papaqlar hündür, girdə formada olmaqla üstən gözəl naxışlarla bəzənərdi (şəkil 3).

Əlimizdə döyüşçü və müxtəlif hərbi xidmətçi geyimləri haqda da kifayət qədər məlumat vardır.

Midiya bu dövrdə Şərqin ən «qüdrətli dövlətlərindən sayılırdı. Məlumdur ki, hələ Kiaksarın hakimiyyəti dövründə (miladdan əvvəl 625-584-cü illər) ölkədə hərbi işi möhkəmləndirmək məqsədi ilə ordunu üç növə (nizəçilər, oxatanlar və süvarilərə) bölmüşdülər. Şübhəsiz, bu növ ordu üçün xüsusi silah və libas lazım idi. Çox güman ki, bu silah və libasdar Midiyada hazırlanırdı.

«Aydındır ki, vergi yolu ilə ordunu lazımi silah və libasla təmin etmək çətindir, ona görə də dövlətin mütləq öz sənətkarları olmalı idi. Yazılı mənbələrdən məlumdur ki, Əhəmənilər dövründə Midiya silahlarını farslar da işlədirdilər. Onlar Midiya libasları geyirdilər. Heradotun dediyinə görə, farslar sənətkarlığa heç fikir vermirdilər»[3].



Şəkil 4.

Beləliklə, bu mənbələr əsasında o dövrdəki hərbi libaslar haqda daha dürüst fikir söyləyə bilərik. Midiya əsgərləri əsas etibarı ilə möhkəm parçadan tikilmiş beldən enli, dəri kəmərlə bağlanan uzun don geyərdilər (şəkil 4), kəmərin qabaq tərəfindən düz formalı enli xəncər bağlanardı. Əsgərdər sülh vaxtı bu geyimləri, müharibəyə getdikdə isə əyinə kip oturan, topuğa qədər uzanan, darqollu köynək geyərdilər. Döşlərini oxdan və nizədən qorumaq məqsədi ilə köynəklərin üstündən dəri ilə çal-çarpaz bağlanmış dairəvi, üstü bəzəkli dəmir asardılar.

Döyüşçülər, yuxarısı nazik və hündür papaq qoyardılar. Bu papaqların əksəriyyəti nazik metaldan və ya qalın dəridən düzəldilirdi. Yüksək rütbəli hərbi xidmətçilər isə daha hündür, girdəformalı, o çaman geniş yayılmış

---

[3] J. B. Yusifov. «Midiya dövlət sənətkarlıq təsərrüfatı haqqında», Azərb. SSR Elmlər Akademiyasının məruzələri № 9, 1959, səh. 874.

Midiya papaqları qoyardılar. Döyüş və ya yürüş zamanı əsgərlər papaqlarının üstlərini (hətta üzlərinin aşağı hissələrini də) küləkdən, tozdan qorumaq məqsədi ilə parça ilə örtərdilər.

Təəssüf ki, o dövrün qadın geyimləri barədə əlimizdə heç bir sənəd yoxdur. Təkcə yunan alimi Strabonun əsərlərində qadın geyimi haqda bir neçə kəlmə ilə qeydə rast gəlirik. Strabon, ümumiyyətlə, Midiya geyim tərzlərinin əmələ gəlməsini Qafqazla əlaqələndirir. O, bu geyimin əsas qadın geyimi olduğunu bildirir və onun yaranma tarixini yunan əsatirində məşhur olan Qafqazda anadan olmuş qadın Medeyanın adı ilə bağlayır. Əgər biz, yunan sənətkarları tərəfindən yaradılmış da olsa, Medeya obrazına diqqət yetirsək, oradakı geyimin doğrudan da nə qədər Midiya kişi geyimlərinə bənzədiyini görərik.

Miladdan əvvəl VI əsrin ortalarında Midiya dövləti gün-gündən zəifləməyə başlayır. Bu zəifləmədən istifadə edən farslar 550-ci ildə midiyalıları məğlub edir, beləliklə də Azərbaycan torpağı Əhəmənilərin Dövlət tərkibinə daxil olur.

Farslar işğal etdikləri yerlərin əhalisindən mədəni cəhətdən çox geri olduqlarına görə, o xalqın adətlərini, geyim və bəzəklərini, hətta bütünlüklə hərbi bacarıqlarını da mənimsəməyə başlayırlar.

Bunu Midiya tarixindən bəhs edən kitablarda da görürük: «...iranlıların geyimi sonralarda bütünlüklə Midiya geyimlərinin eyni idi...»[4].

«Azərbaycan tarixi» kitabında deyilir: «Midiyalıların, kaspilərin və digər tayfaların böyük hərbi təcrübələrini nəzərə alan Əhəmənilər, onları geniş miqyasda öz qoşunlarına daxil edirdilər. Midiyalılar və kaspilər yalnız piyada qoşunda deyil, donanmada da qulluq edirdilər».

Herodotun dediyinə görə, İran şahı Kserks (miladdan əvvəl 486-465-ci illər) Yunanıstana yürüş edərkən «hər bir gəmidə otuz nəfər midiyalı, otuz nəfər iranlı, otuz nəfər sak var idi». Bu yürüşdə kaspilər də iştirak edirdilər. Herodot onlar haqqında yazmışdır: «Kaspilər sisirnalar (qədim yunanlarda) uzun köynəyə oxşar yun parçadan geyim geymişdilər, onların qamışdan qayrılmış yerli oxları və akinakları (kiçik qılıncları) var idi».

Tarixdən məlumdur ki, Makedoniyalı İsgəndərin ordusu ilə mübarizədə Əhəməni ordusunun ən cəngavər və cəsur əsgərləri midiyalılar idi və bu məşhur tarixi döyüşdə onlar şah ordusunun sağ cinahında dururdular.

Bu dövrün gözəlləri haqda on maraqlı məlumat İtaliyanın Pompey adlı şəhərindən tapılmış mozaika və Stambulun dövlət muzeyində saxlanılan Əhəməni və yunan qoşunlarının mübarizəsini təsvir edən Makedoniyalı İsgəndərin sarkofaqıdır»[5].

Birinci abidə daha maraqlıdır.

---

[4] З. Рогозина. «Истории Мидии», С. Петербург, 1903, səh. 310.
[5] Daşdan qutu kimi düzəldilmiş qəbir, məqbərə.

Hələ XIX əsrin axırlarında Pompeydə[6] aparılan "qazıntılar zamanı tapılmış bu təsviri sənət əsəri dünyanın bir çox alimlərinin diqqətini cəlb etmişdir.

Kompozisiya eradan əvvəl 331-ci ildə Qavqamel (Assuriyada) ətrafında Makedoniyalı İsgəndərin Əhəməni şahı III Dara və onun qardaşı Oksafr başda olduğu qoşunun məğlub edilməsini təsvir edir.

Rəssam əsəri çox maraqlı bir şəkildə açır: Daranın mərd qoşunları məğlub olmaq üzrədir, onun qardaşının atı yaralanmışdır. O özünü itirmiş halda şah arabasının qabağında ona təqdim edilən yeni bir ata minmək istəyir. Lakin daha gecdir. İsgəndər atda ildırım kimi şığıyıb özünü ona yetirir və nizə ilə Əhəməni ordusunun baş sərkərdəsini öldürür.

Rəssam sonrakı hadisəni də böyük realizmlə davam etdirir: Dara özünü itirmişdir; o nə öz təkliyini, nə ona hücum edən yunanları, nə də qırmancla atları döyüb şah arabasını tələf olmuş qoşun leşləri arasından çıxarıb qaçmaq istəyən arabaçını görür. Dara təkcə öz qardaşının ölümünü və onunla yanaşı öz taleyini düşünür.

Bu qədim abidə öz yüksək bədiiliyi ilə yanaşı, o zamankı hərbi gözəl və silahlar haqda da xeyli məlumat verir. Bu nadir sənət əsərinə əsasən deyə bilərik ki, o dövrdə nəinki ordu, hətta Dara özü də Midiya libası geymişdir.

Yeri gəlmişkən qeyd edək ki, qədim dövrlərdə (orta əsrlərdə də) gözəl tərzləri çox nadir hallarda - böyük tarixi hadisələrdən sonra dəyişirdi. Lakin hər bir yeni gözəl tərzi ən azı bir neçə əsr dazam edirdi.

Eradan əvvəl IV - I əsrlərdə və eramızın V əsrinədək Azərbaycanın Şimal vilayətləri Albaniya adlanırdı. Onun ərazisi Kiçik Qafqazdan və Kür ilə Arazın aşağı axarından başlayaraq Böyük Qafqaz sıra dağlarının şimal-şərq qurtaracağına qədər uzanırdı.



Şəkil 5

Albaniyada sinfi cəmiyyət Midiyaya nisbətən gec əmələ gəldiyindən ictimai təbəqələşmə də geridə qalırdı.

Bütün bunlara baxmayaraq, əlimizdə, o dövrdə Şimali Azərbaycanda yüksək bir mədəniyyətin olub inkişaf etdiyini göstərən bir çox fakt vardır. Son illərdə arxeoloji qazıntılar zamanı Mingəçevirdən və Yaloylu təpədən tapılan maddi-mədəniyyət nümunələri: gözəl naxışlı parça hissələri, sancaq başları, gümüş toqqa, bilərzik, baş biləkləri və s. bunu bir daha sübut edir (şəkil 5). Bu bədii sənət nümunələrinin üstündə olan naxışlar və onların ümumi kompozisiyası Azərbaycan xalq sənətində indiyə qədər işlədilən motivlərdəndir.

[6] Pompey şəhəri bizim eranın I əsrində Vezuvi vulkanında batmışdır.

Strabonun dediyinə görə, albanlar ucaboy, gözəlgörünüşlü və cəngavər xalq imişlər. Müharibə zamanı onlar düz qılınc, nizə, cida, yay və oxlarla silahlanır və zirehli paltar geyərmişlər.

Silahlanma səviyyəsinə görə albanlar ermənilərdən və iberlərdən geri qalmırmışlar. Strabon qeyd edir ki, «albanlar ermənilər kimi, piyada və atlı, yüngül silahlı və zirehli paltarda vuruşurlar».

Bundan başqa, alban gözəlləri haqda məlumat verən qeyri məxəzlər də vardır. Bu cəhətdən əldə olan bir neçə təsviri sənət nümunəsi xüsusilə diqqətə layiqdir.

Məlumdur ki, Roma orduları eramızın II-III əsrlərində Qafqaza, eləcə də Azərbaycana (Albaniyaya) bir neçə dəfə yürüş etmişdir. Bu tarixi hadisələrin bir neçəsi o zamankı dövrə aid olan Roma abidələrində əks edilmişdir. Roma imperatorları döyüşü», «əsir aparanlar», «qarət» və s. bu kimi hadisələr Roma sənətinə xas olan yüksək realizm üsulunda təsvir edilmişdir.

Azərbaycana aid kompozisiyalardakı gözəl, bəzək və silahları Mingəçevir qazıntıları zamanı tapılmış o dövrün (II-III əsrin) paltar tikələri, bəzək və silahları ilə müqayisə etsək, onların bir-birinə nə qədər yaxın olduğunu görür, o dövr gözəlləri haqqında nisbətən real təsəvvür əldə edə bilirik.

Bu və ya digər məxəzlərə əsasən, Azərbaycan ərazisində yaşayan xalqların hələ eramızın II-III əsrlərində ipək, kətan, yun parça istehsal etdiyini və onlardan gözəl biçimdə libaslar geydiyini yəqin edə bilirik. Maraqlıdır ki, o dövrdə yayılmış bir çox gözəl formaları (bəzi baş gözəlləri, ayaqqabılar) XIX-XX əsrin əvvəllərinə qədər gəlib çıxmışdır.

Alban hərbi gözəli əsas etibarı ilə zirehli örtük, papaq və qalxandan ibarət idi. Zirehli örtük bədənin bütün yuxarı hissəsini örtürdü. Bu örtüklər hissə-hissə qalın dəri üzərinə bərkidilmiş dəmir parçalarından ibarət idi və bütünlüklə pullu balıq dərisini xatırladırdı. Adətən belə zirehli geyimin altından gödəkqollu qalın köynəklər geyərdilər. Albanlar belə zirehli-geyimi müharibə zamanı öz atlarına da geydirərdilər.

Alban sənətkarları metal üzərində işləmək və ona müxtəlif bəzəklər vurmaqda da çox mahir idilər. Buna qalın dəridən düzəldilmiş, üstü bəzəkli dəmir hissəsiklərlə örtülmüş dairəvi qalxanlar və dəmir hissəciklərindən bərkidilmiş papaqlar misal ola bilər.

Feodal münasibətlərin inkişafı dövründə, yəni III-V əsrlərdə, bədii sənət şeylərinin istehsalı, o cümlədən parça, zərgərlik işi və s. xeyli inkişaf edib artmışdı. Sənətkarlıq əmtəə ietehsalı dairəsinə getdikcə daha çox daxil olurdu. Yazılı mənbələrlə yanaşı, arxeoloji materiallar da bunu təsdiq edir.

Bu haqda «Azərbaycan tarixi» kitabında göstərilən faktlar olduqca maraqlıdır. Kitabda deyilir ki, hələ o zaman parçanı hazırlamaq üçün sadə dəzgahlardan istifadə edilirdi. Belə dəzgahların qalığı və cürbəcür toxuma və əyirmə alətləri Mingəçevir qazıntıları zamanı qəbirlərdən tapılmışdır. Həmin

qəbirlərdə yun sap yumaqları, nazik parçadan tikilmiş paltar hissələri olmuşdur. Bu paltarlar Sasanilər dövründə, yəni V-VI əsrlərdə Azərbaycanda qəşəng və zərif parçalar toxunulduğunu sübut edir.

Bu dövrdə Azərbaycan incəsənəti də çox orijinal olmuşdur. Əlbəttə, bu incəsənət əlahiddə inkişaf etməmişdir. Ümumiyyətlə, Sasani mədəniyyətinin yaradılmasında iranlılardan başqa Azərbaycanın, Ermənistanın, Gürcüstanın, Orta Asiyanın və digər xalqların da təsiri olmuşdur.

Sasani memarlıq abidələrində, zərgərlik şeylərində, təkəlduz və parça naxışlarında Azərbaycan sənətinə xas olan çoxlu əlamətlər vardır. Qərbi avropa muzeylərində saxlanılan Sasani parçalarının naxışlarının Azərbaycan saxsı qablarına və xüsusən metal üzərindəki naxışlara oxşarlığı görünür. Üzərində xoruz təsviri olan və romada Lateran kilsəsində saxlanan VII əsr Sasani parçalarının naxış oxşarlıqlarını Azərbaycan metal və saxsı qabları üzərindəki təsvirlərin nümunələrində də görürük. Yaxud Axen kapellasındakı VIII-IX əsrlərə aid başla bir parçanın üzərindəki ördək və quş təsvirlərini qədim Azərbaycan metal şeylərinin naxışında görmək mümkündür.

Yuxarıda göstərilən faktdar sübut edir ki, Azərbaycan xalqı böyük Sasani dövlətinin tərkibinə daxil olarkən bu mədəniyyətin yaranmasında böyük rol oynamışdır.

Ümumiyyətlə, Sasani dövründə Azərbaycan və iran mədəniyyətinin belə yaxınlığı bizə imkan verir ki, müxtəlif muzeylərdə nümayiş etdirilən iran ərazisindən və eləcə də Sovet ittifaqının bir çox yerlərindən tapılmış yüzlərlə bədii Sasani qızıl, gümüş, mis qabları nəzərdən keçirək.

Həmin nümunələrin qiymətli cəhəti ondan ibarətdir ki, üzəri müharibə, ov, məişət və s. səhnələrlə bəzənən bu eksponatlar o zamanın geyim tərzləri və bəzəkləri haqda, az da olsa, bizə təsəvvür verir.

Ərəb xilafətinin işğalı dövründə də (VII əsrin ortaları) Azərbaycan mədəniyyətinin inkişafı islam dininin təsiri ilə deyil. Müxtəlif xalqların iqtisadi-siyasi və mədəni quruluşunun bir-biri ilə böyük miqyasda yaxınlaşması ilə izah olunur.

Bu dövrdə qədim Azərbaycan mədəniyyəti özünə müəyyən təsir qəbul eşəklə bərabər, xilafətə daxil olan başqa xalqların mədəniyyətinə də təsir göstərmişdir.

Bir sözlə, Azərbaycan, «müsəlman mədəniyyəti» adı altında çiçəklənmə dövrü keçirən mədəniyyətlə sıx əlaqədə inkişaf edirdi.

Azərbaycanda ticarətin inkişafı ilə əlaqədar olaraq, toxuculuq sənəti xeyli artmışdı. X əsrdə yaşamış ərəb müəllifləri Müqəddəsi və Məsudi yazırlar ki, Azərbaycan sənətkarları satış üçün yun, pambıq, ipək parçalar və paltarlar hazırlayırdılar. Gəncədə hazırlanan yun paltarlar, Naxçıvanın məşhur çuxaları, Təbrizdə istehsal edilən gözəl atlaz, kişi üst geyimləri, Xoyda nazik kətandan hazırlanan paltarlar bu dövrdə çox məşhur idi.

Azərbaycanda bir çox gözəl sənət nümunələri: parça, paltar, bəzək və silah hazırlayan mahir ustaların olmasına baxmayaraq, bu sənət nümunələrinin milli siması yox dərəcəsində idi. Belə naxışlı parçalara, bəzək şeylərinə, silahlara və s. sənət məmulatına «böyük müsəlman xilafətinin» bir çox yerlərində rast gəlinir. Bu ümumiliyin əsas səbəbi müxtəlif müsəlman dövlətləri arasında inkişaf edən güclü ticarət idi. Ən zərif geyim materialı sayılan ipək və məxməri, habelə başqa müxtəlif geyimləri, bəzək və silahları istənilən vaxt pula çevirmək mümkün idi. Dindar müsəlman sənətkarlarının hər il Məkkə ziyarətinə getmələri bədii sənət stilinin ümumiləşməsində və geniş yayılmasında az rol oynamırdı. Müsəlman ölkələrindən gələn sənətkarlar - rəssamlar, zərgərlər, toxucular burada görüşür, bir-birlərinə öz təcrübələrindən danışır və yeni-yeni üslublar öyrənirlərdi. Həmin sənətkarlar vətənlərinə qayıdıqdan sonra bu təcrübəni öz işlərində tətbiq etməyə başlayır, yeri gəldikcə bu yeni modaya milli ornamentlər artırır, yeni-yeni bəzəklər vururdular.

Ərəblərin Azərbaycanı zəbt etdiyindən sonra maddi-mədəniyyət nümunəsi olan geyimdə çox böyük dəyişikliklər olmuşdu. Beləliklə, bu dövrdən başlayaraq Azərbaycanlılar arasında əba, qəba, əmmamə kimi ərəb geyimləri yayılmağa başlamışdı.

Əba - xələti andıran, qabaq tərəfdən boyaboy açıq, enli, uzunqollu və ətəkləri yerə qədər uzanan libasdır. Bu xələtlər öz biçimi və formasına görə, bütünlüklə Midiya üst geyimlərini xatırladır və çox güman ki, bunların əsasında əmələ gəlmişdir. Bu xələtin altındakı nisbətən qısa və möhkəm parçadan tikilmiş qəba geyərdilər. Varlı şəxslərin qəbalarının çiyni, qolları və ətəkləri qızıl-gümüş saplarla toxunardı. (bəzəkli tikmələr qəbani geyən şəxsin yuxarı təbəqədən olmasını bildirirdi.) çox zaman bu zərli tikmələrin (ərəbcə «tiraz») arasında kufi yazılarla həndısi naxışları xatırladan sözlər də yerləşdirilərdi. Əksər hallarda belə geyimlərdən ölkəni idarə edən xəlifənin və ya sərkərdənin adı yazılardı.

O dövrdə xalq arasında ən çox yayılmış kişi baş geyimi çalma idi. Çalmalar əsas etibari ilə ağ rəngdə olurdu.

Qadın geyimlərində də bir çox yeniliklər meydana gəlmişdi. Qadınlar üstdən uzunqollu (dabana qədər uzanan ətəkli) enli don, altından da köynək, uzun, enli tuman geyərdilər. Ev şəraitində geyilən bu paltarları kişilərdən gizlətmək üçün onlar küçəyə çıxdıqda çarşaba bürünər və üzlərini rübəndlə örtərdilər.

Azərbaycanda qadınların çarşab örtmələri haqqında ən qədim qeydlərdən birinə Nizami Gəncəvinin əsərlərində rast gəlirik. Nizaminin «Yeddi gözəl» əsərində deyilir ki, xeyir nə qədər ki, kor idi, Kürdün evindəki qadınlar ondan yaşınmır, üzləri açıq gəzirdilər, o sağalıb gözləri açılandan sonra isə onlar - qadınlar üzlərini örtürlər.

Azərbaycan ərazisindəki xalqların müsəlman dinini qəbul etdikdən sonra geydikləri libasları qısaca da olsa qeyd etdik.

«Lakin tezliklə vahid müsəlman üslubu olduqca böyük müsəlman ərazisinin müxtəlif hissələrində yerli xüsusiyyətlərin inkişafına səbəb olan bəzi mərkəzdənqaçma qüvvələrlə toqquşmağa başlayır. Hər bir müsəlman dövləti tədrislə məhz buradakı ictimai-iqtisadi münasibətlərin konkret forması və bədii ənənələri əsasında öz xüsusi, müstəqil naxış və bəzəklərini yaradır ki, bunlarda da yerli məişət şəraiti, yerli bitki və heyvanat aləmi, yerli sinfi quruluş əks olunurdu»[7].

Beləliklə, ümumi geyim tərzləri qəbul olunan şəkildə qalırdısa da, onların naxışları və qeyri bəzəkləri get-gedə yerli mühitə uyğunlaşaraq inkişaf edirdi.

XI-XII əsrlərdə Səlcuqların hökmranlığı dövründə Azərbaycan şəhərlıərində parça istehsalı xeyli artır. Xüsusən Gəncənin ipək malları çox şöhrət qazanır. Bu dövrün parçaları üzərindəki naxışlar «metal» xasiyyəti daşımır, yəni naxışlar əvvəlki dövrlərə aid olan bərklikdən və ağırlıqdan uzaqlaşmışlar. Bu da onunla izah olunur ki, o dövrün ustaları əvvəlki dövrlərdən fərqlənərək, daha zərif parça istehsal edir və bu parça üzərindəki naxışları bir sapla deyil, bir neçə rəngli sapla bəzəməyə başlayırlar.

İstehsal edilən bu parçalar o zaman Ermənistana, Gürsüstana və Orta Asiyaya göndərilirdi. Bərdə, Şamaxı və Təbriz şəhərlərində ipək, yun, pambıq və kətan parçalar xüsusilə çox istehsal olunurdu. Ərəb səyyahı Yaqut Həməvi yazır ki, Təbrizdə atlaz, xətayi və başqa parçalar hazırlanıb həm qərb, həm də şərq ölkələrinə göndərilirdi.

Səlcuqların Azərbaycanda hökmranlıq etdiyi dövrün geyim tərzlərini əks edən bir neçə maraqlı əsərlər qalmışdır. Bunlardan Toğrul (1038-1063-cü illər) və ona qulluq edən əyanları təsvir edən Reydən tapılmış divar bəzəyi və Sovet Azərbaycanında son zamanlar qazıntılardan əldə edilmiş XI-XII əsrlərə aid edilən üstü təsvirli çini qabları göstərmək olar.

Azərbaycan geyimlərindəki sonrakı yeniliklər Azərbaycan torpağının monqol işğalından (1239-cu il) sonra əmələ gəlir. Monqollar Azərbaycanı işğal edəndən sonra Beyləqan, Gəncə, Şamaxı, Ərdəbil, Xoy və sair bu kimi ticarət və sənətkarlıq cəhətdən tərəqqi edən şəhərləri xarabaya qoymuşdular.

Yerli sənətkarlığın dağılması, məlumdur ki, parça istehsalına və eləcə də onunla əlaqədar olan geyimlərin inkişafına mənfi təsir göstərəcəkdi. XIII-XIV əsrlərdə Azərbaycanda yuxarı təbəqəyə mənsub olan şəxslərdə və ümumiyyətlə şəhər əhlində (monqol geyimlərinin çox güclü təsiri görünür. Bu təsir isə monqollar tərəfindən Uzaq Şərqdən gətirilmiş Çin və Uyğurların mədəniyyətlərinin əlamətləri idi.

Bu vaxt Azərbaycanın bir çox şəhərlərində, xüsusən Hülakulərin paytaxtı olan Təbrizdə camaat qolugödək, ətəkləri yandan kəsik, uzun, sağ qoltuq altında

---

[7] Н. Н. Соболев «Очерки по истории украшения и тканей», Изд. Академия М. - Л, 1934, sıəh. 116.

bağlanan xələtlər («cübbə») geyərdilər. Nisbətən dövlətli şəxslərin xələtlərinin üstündə döş tərəfdə stilizə edilmiş əjdaha, quş və qeyri Uzaq Şərq əfsanələrinə xas təsvirli tikmələr olurdu. Bəzən bu geyimlərin üstünə naxışlı örtük də atırdılar.

O dövrün baş geyimləri də çox qəribədir. Papaqlar balaca dairəvi şəkildə - dördbucağı andıran və yanları istənilən vaxt qalxıb-düşən idi. Bundan başqa, camaat şlyapayabənzər, ətrafı yük papaqlar və dairəvi yastı əmmamələr də qoyurdular.

Təbriz geyim tərzlərini əks edən ən maraqlı və gözəl minatürlərlə bəzənmiş sənəd «Cami-ət-təvarix» («Salnamələr məcmuəsi») adlı əlyazmasıdır (İstambulda top qapı sarayı muzeyində saxlanılır). Həmin kitabda o zamanın saray əyanlarının əsgərlərinin, ruhanilərinin və başqalarının geydikləri libaslarını və bəzəklərini əks edən çoxlu rəsmlər vardır.

Azərbaycan geyim və bəzəkləri XVI əsrə qədər bu şəkildə, müxtəlif yadelli mədəniyyətin təsiri altında inkişaf etmişdir.

Azərbaycan milli geyimlərm tarixində XVI əsr ən zəngin dövr sayılır.

Səfəvi dövlətinin əmələ gəlməsi Təbriz şəhərini o dövrün (Paris, Avropada olduğu kimi) «modalar» mərkəzinə çevirmişdi. burada adlarI bütün şərq aləmində yayılmış nəqqaşlar, zərgərlər, dərzilər yaşayır və geyim mədəniyyətimizin böyük inkişaf yolunu göstərən qiymətli naxışlı parçalar. İpək məmulatı və bəzək şeyləri istehsal edilirdi.

Hazırda Moskva və Leninqrad, həmçinin dünyanin bir çox məşhur muzeylərində, o zaman Təbrizdə və Şamaxıda hazırlanmış ipək parçalardan, qırmızı, yaşıl məxmərlərdən, qızıl-gümüş toxumalı örtüklərdən çoxlu nümunə saxlanılır. Vaxtilə yüksək dərəcədə qiymətləndirilən bu gözəl sənət nümunələrinə Venetsiya, Hollandiya, Fransa və Rusiyada həmişə böyük tələbat olmuşdur.

Məşhur sənətşünası B. Danike «Şərq sənəti» adlı kitabında yazır ki, qızılbaş məxməri və zərbaf malları bu dövrdə Rusiya şəhərlərində alıcılar arasında çox geniş yayılmışdı[8].

Bu parçaların qiymətli cəhəti bir də ondan ibarət idi ki, milli naxışla bəzənir və çox vaxt daha gözəl görünmək üçün həmin naxışların arasında klassik şairlərin əsərlərindən alınmış obrazlar təsvir edilərdi.

Məşhur fransız sənətşünası Q. Mijon bu parçaların gözəlliyinə məftun olaraq oradakı bəzəklərə belə qiymət vermişdir: «Onlar elə bil «Minbir gecə» nağıllarına çəkilmiş illüstrasiyadır».

Belə sənətkarlıqla işlənmiş toxuma malların üstündə zəmanəsinin görkəmli rəssamlarının da az zəhməti olmamışdır. Bəzi parçaların üstündə XVI əsrin məşhur rəssamlarından: Sultan Məhəmmədin, Qias-Əddin Əlinin, Mirzə Qafar Qızılbaşın və başqalarının adı vardır.

---

[8] Б. Денике «Искусство Востока», Казань, 1923-cü il, səh. 184.

Tətbiqi sənətin (xüsusən bədii toxumaların) belə yüksək səviyyədə olması, şübhəsiz, geyim üslubunun inkişafına da az təsir etməmişdir.

XVI əsrə aid geyim və bəzəklərin qiymətli cəhətlərindən biri də olur ki, bu vaxt, Azərbaycan xalqı Monqol istilasi zamanı Uzaq Şərqdən gətirilmiş - yerli mühitə uyğun olmayan geyim və bəzəklər tamamilə imtina etmiş, öz milli geyim məktəbini yaratmışdır. İndiki sənətkarlar qədim ənənələr əsasında Azərbaycanın iqliminə, təbiətinə, əhalisinin zövqünə münasib geyim və bəzəklər yaradırlar.



Şəkil 6.

XVI əsrin Azərbaycan modaları içərisində ən maraqlısı baş geyimləri olduğu üçün, bu barədə daha ətraflı danışmaq lazım gəlir. Tarixdən məlumdur ki, Səfəviləri «Qızılbaşlar» adlandırırdılar, çünki Səfəvilər başlarına təpəsi nazik və hündür, qırmızı papaq qoyub, onun da ətrafına sarıq dolayırdılar (şəkil 6). Zadəganlar və rütbəli hərbi xidmətçilər isə əmmamənin üstündən 12 daş taxar və ya zərli xətlər çəkdirərdilər.

Yüksəkrütbəli əyanların qoyduqları belə baş geyimlərinin üstündə bəzən böyük və qiymətli bir qaş, onun da ətrafında nisbətən kiçikhəcmli qaş-daş olurdu. (Burada böyük qaş - Məhəmməd peyğəmbərə və ya Əliyə, kiçik qaşlar isə 12 imama işarədir).





Şəkil 7, 8

Səfəvilər dövründəki baş geyimlərini öyrənən məşhur alman tədqiqatçısı H. Höts əyani vasitələrlə isbat etmişdir ki, bu baş geyimləri 70 il ərzində bir neçə dəfə öz formasını dəyişmişdir. H. Höts bu dəyişikliyi arifmetik şəkildə bu cür təsvir edir: 1530-cu ildə baş geyimlərinin uzunu eninə 2:1, 1535-ci ildə 3:1 və sonralar - XVI əsrin yarısında isə 1:1 nisbətdə olmuşdur (şəkil 7, 8). Deməli, XVI əsrin başlanğıcından 1535-ci ilə qədər baş geyimləri uzanır, XVI əsrin ikinci yarısından isə qısalaraq əsas etibari ilə enləşir və 1570- ci illərdə bütünlüklə əmmamənin içindən uzanan qırmızı başlıq yox olur.

Təbriz baş geyimləri o zaman Azərbaycanın başqa şəhərlərinə də yayılmışdı. XVI əsrdə Şamaxıda, Naxçıvanda və qeyri şəhərlərdə olmuş xarici ölkə səyyahları bunu sübut edən qeydlər qoyub getmişlər.

1553-cü ilin aprel ayında Şamaxıda Abdulla xanın qonağı olmuş ingilis səyyahı və diplomatı Antoni Cekinson, xanın libasını təsvir edərək yazır:

“Şirvan xanı ipək parçadan uzun paltar geymişdi. Dona oxşayan bu geyimin üstü mirvari və bahalı daş-qaşla bəzənmişdi. Başına bahalı taftadan təpəsi yarım metr hündürlükdə, ucu iti, ətrafında 20 metr uzunluğunda qızıl ilə işlənmiş hind ipəyi dolanmış çalmalı papaq qoyur. Çalmanın sol tərəfindən, şirmayidan qayrılmış

qızıl və qiymətli daşlarla müzəyyən borudan lələk dəstəsi çıxır, onun üstünə isə ovuc içi boyda qızıl lövhədə iki qiymətli yaqut yapışdırılmışdır”.

Bundan bir qədər sonra – 1566-cı ilin avqust ayında yenə Şamaxıya gəlmiş qeyri bir ingilis səyyahı (M. Artur) kraliça Yelizavetaya yazdığı məktubda ona qırmızı məxmər göndərilməsini xahiş edir. Onun dediyinə görə, “burada tikilən papaqlar üçün belə qırmızı parçalara ehtiyac vardır”.

Bu tipli baş geyimlərinin Azərbaycanın bir sıra şəhərlərində yayıldığı barədə bir çox fakt göstərmək mümkündür. Belə papaqların izlərinin biz Əfqanıstanda, Orta Asiyada və Hindistanda da görürük.



Şəkil 9

Azərbaycanda XVI əsrdə ucu şiş, qırmızıbaşlı əmmamələrlə yanaşı, adi - bəzəksiz əmmamələr də geniş yayılmışdı. Bunlar müxtəlif parçalardan olub, kiçik araqçın və ya gülah adlı papaq geydikdən sonra başa dolanardı. Əmmamənin parçasının rəngi, ölçüsü, hətta başa dolanması da xüsusi qaydada, yəni o vaxtkı dövrün geyim tərzləri əsasında olmalı idi. O zaman ən çox yayılmış əmmamələr, əsasən, ağ rənfli idi (şəkil 9). Şah, vəzir və ya rütbəli ruhanilər isə yaşıl rəngli əmmamə qoyardılar. Azərbaycanlı olmayanlar başqa rəngli əmmamə geyməli idilər, məsələn: ermənilər qara və ya göy, yəhudilər sarı və s.

Şəriətə görə, əmmamənin ölçüsü onu geyən şəxsin boyuna müvafiq gəlməli idi, çünki əmmamədən yalnız başa dolamaq üçün deyil, həm də lazım gələndə süfrə, qurşaq, hətta məcburiyyət qarşısında kəfən kimi də istifadə edilirdi.

Hörmətli şəxslər, yəni alimlər, şairlər, rəssamlar daha böyük və ağ əmmamə qoyardılar. Əmmamələri başa dolamağın da xüsusi qaydası var idi. Ümumiyyətlə alimlər, şairlər, rəssamlar başa dolanan əmmamənin ucunu sol tərəfdən çiyinləri üstə salar və yalnız namaz qıldıqları zaman ucunu çənə altdan gətirib sağ tərəfdə bağlayardılar. Belə əmmamələrin yandan sallanan ucu çox vaxt naxışlarla bəzənər və aşağısı saçaqlı olardı.

XVI əsrdə Azərbaycanda çalma ilə yanaşı, orijinal, kiçik şlyapayabənzər papaqlar da mövcud idi; bu papaqlar ağ keçədən tikilərdi, üçbucaq formasında idi.

Papağın aşağısında şlyapanın ətrafına bənzər qabaqlığı vardı ki, bu da istənilən vaxtda onu (gün və ya toz olan vaxt) açıb-örtmək üçün işlədilirdi. Dövlətli şəxslər belə papaqların yuxarısına gözəllik üçün quş lələyi taxardılar. Əgər biz dediyimiz papaqların tarixini yoxlasaq, onun çox qədimliyini və vaxtilə Orta Asiyadan gəlməsini görərik. Bu cür papaqların biz lap qədim təsvirini Əfrasiyabda (Özbəkistan SSR) tapılmış VIII əsrə aid heykəlcikdə («Türk atlısı» adlanan şəxsin başında) və sonra XIII əsrə aid Vyana kitabxanasında saxlanılan bir Səlcuq miniatüründə görürük.

Belə baş geyimlərinin XVI əsrdə və sonralar Azərbaycanda yayılmasını biz yenə təsviri sənətdə tədqiq edə bilirik. Təbrizdə Bəhzad tərəfindən işlənmiş və hazırda Britaniya muzeyində nömrə altında saxlanılan miniatürdə böyük

Azərbaycan şairi Nizaminin «Xosrov və Şirin» poemasından Fərhadın obrazı təsvir edilmişdir. Həmin miniatürdə yuxarıda dediyimiz papağı Fərhadın başında görürük.

Bu baş geyimlərinin daha sonralar da Azərbaycanda olmasını Nuxada Şəkixanovlar sarayındakı divar rəsmi də isbat edir. (Bu rəsmlərdə də Nizaminin obrazlarının birinin başında belə papaq vardır.)

XVI əsr miniatürlərində və başqa abidələrdə biz ayrı bir maraqlı papağa da rast gəlirik. Bu, qalın parçadan tikilmiş və üstü naxışlarla bəzənmiş hündür, üçbucaqşəkilli «külah»dır. Belə papaqların üstündə təkdən bir gözəl xətlə tikilmiş Əlinin[9] adına rast gəlirik. Belə yazılı külahları, əsas etibarı ilə, dərvişlər geyərdi.

Təbrizdə, Bakıda və Şamaxıda bu papaqları yaşlı və hörmətli şəxslər qoyardılar. Vaxtilə Qarabağ xanının papağı olmuş gözəl bir «külah» hazırda R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılır.

Bunlardan əlavə, XVI əsrdə Azərbaycanda bir sıra başqa formalı papaqlar da olmuşdur. Bu papaqlardan qoyun dərisindən tikilənləri nisbətən geniş yayılmışdır. Bunu əsas etibarı ilə çobanlar və köçəri həyat keçirən adamlar geyərdilər.



Şəkil 9 a

XVI əsrdə Azərbaycanda qadın baş geyimləri də çox mürəkkəb olmuşdur. Əldə edilmiş materiallara əsasən demək olar ki, Azərbaycanda o vaxt 7 növə yaxın qadın baş geyimi olmuşdur. Bunlardan gözəl, əlvan naxışlı örpəkləri, kiçik, narın naxışlı araqçınları, çənə altından bağlanan incə, güllü və muncuqlu ləçəkləri, tac, çalma, kənarları xəz və ya məxmərdən tikilmiş şlyapaları göstərmək olar (şəkil 9 a).

XVI əsrdə ən çox yayılmış qadın baş geyimlərindən biri araqçın idi. Bunlar əsas etibarı ilə iki cür olurdu: qadın və qız araqçınları. Qadınların araqçını daha mürəkkəb olub, arxa tərəfdən qəşəng uzun torba ilə birləşdirilərdi. Qadınlar bu torbadan hörüklərini qoymaq üçün istifadə edirdilər. Dövlətli qadınlar belə baş geyimlərini qızıl və ya başqa qiymətli metallardan nazik hörmə şəkildə düzəltdirib geyərdilər. Bəzi araqçınlarda torba da olmazdı; bunun əvəzində papağın arxası hörük kimi uzadılıb yuxarı qaldırılardı.



Şəkil 10, 11

Alman alimi H. Hots xüsusən Təbrizdə geniş yayılmış bu cür qadın baş geyimini Qupt dövründə (bizim eranın III əsri) Hindistanda qadın baş geyimləri ilə müqayisə edərək, onların yaranma tarixinin çox qədim olmasını və Hindistandan keçməsini bildirir (şəkil 10 və 11).

[9] Dördüncü xəlifənin adı.



Şəkil 12

Araqçınları qadınlar evdə, həyətdə və qonaqlığa getdikdə geyər, küçəyə çıxdıqları vaxt isə üstdən əsas etibarı ilə ağ çarşab örtərdilər[10]. (şəkil 12).

Azərbaycan şəhərlərində qadınların başlarına örtük saldığını ispan diplomatı Klavixo da xəbər verir.

XV əsrdə o, xüsusi heyətlə Səmərqəndə - Teymurləngin sarayına gedərkən bir müddət Təbrizdə qalmış və öz gündəliyində bu şəhəri belə təsvir etmişdir: «Burada (Təbrizdə) ipək və iplik parçalar, səndəl, tafta, xam ipək, mirvari və başqa bir çox şeylər satılır. Burada qadınlar üçün ətriyyat satan tacirlər də vardır. Qadınlar özləri onların yanına gəlir və ətriyyat malları alırlar. Qadınlar başlarına çarşab salır, üzlərini at tükündən toxunan rübəndlə örtürlər. Beləliklə, onları tapımaq mümkün olmur.

XVI əsrdə Azərbaycanda üst geyimləri də çox müxtəlif və rəngi-rəng olmuşdur. Bu dövrdəki üst geyim formaları əsas etibarı ilə qədim geyim ənənələrinin davamı kimi inkişaf edir. Lakin bu ənənə, getdikcə daha da zənginləşmiş, gözəlləşmiş və dekorativləşmə istiqamətində inkişaf etmişdir. Dəyişiklik əsas etibarı ilə ayrı-ayrı detallarda, naxış və bəzəklərdə əmələ gəlmişdir.

XVI əsrin üst geyimləri haqqında məlumat verən ən qiymətli məxəzlərdən biri - miniatürdür. Alimlər bu miniatürlərdəki məişətə aid ünsürlərin realistcəsinə təsvir edildiyini dəfələrlə qeyd etmişlər.

Miniatürlərdəki məişət detalları, həqiqətən, maddi-mədəniyyətimizin məxəzi sayıla bilər. Miniatürçü rəssam öz əsərində geyilən paltarları, taxılan bəzəkləri, işlədilən silahları, habelə ev əşyalarını dəqiq surətdə təsvir edir. Buna görə də XVI əsr Təbriz miniatürləri çox qiymətlidir.



Şəkil 13

Həmin dövrdə Azərbaycandakı varlı təbəqələr - kişilər lap üstdən, ətəkləri, çiyin və boyun hissələri tikməli xələt geyərdilər. Bu xələqlər özü də iki növ olardı. Birinci növ xələtlər məhz çiyinə atmaqdan ötrü idi. Belə xələtlərin çiyindən çox enli, aşağı getdikcə daralan qolları var idi ki, bunlar da heç vaxt geyilməzdi; ancaq dekorativ bir element kimi yandan sallanardı (şəkil 13). İkinci növ xələt, əksinə, enli yarımqol olub əyində nisbətən kip dayanardı. Soyuq havalarda, belə xələtlərin üstündən qurşaq, yaxud üstü gümüş naxışlarla bəzənmiş kəmər bağlanardı. Xələtin astarı rəngarəng görünmək üçün açıq rəngli parçadan olardı. Çox vaxt belə xələtlərə açıq-sarı ipəkdən astar çəkərdilər.

[10] Küçədə «çarşabsız gəzməyə ancaq kiçik qızlara və qarılara icazə verilirdi.

Bu xələtlərin altından gödəkqollu, çiyinləri, döşləri və qolları milli naxışlarla bəzənmiş uzun don geyilərdi. Donların aşağı böyürlərində 20 sm uzunluğunda çapığı olardı ki, bu da tez yeriyəndə və ya iri addım atanda maneçilik törətməmək üçün idi. Təbriz miniatürlərində biz belə köynəklərin nazik dəri kəmərlə bağlandığını tez-tez görürük. (Onu da qeyd edək ki, ümumiyyətlə, kəmərin sol tərəfindən həmişə nazik bıçaq və ya naxışlı xəncər bağlanardı.) Miniatürlərdə qırmızı, narıncı və yaşıl rəngli köynəklərə çox təsadüf etmək olur, həmçinin bu rəngli geyimlər Azərbaycanda ta qədimdən XIX əsrə qədər ən sevimli rənglərdən olmuşdur.

XVI əsrdə Azərbaycanda ənənəvi libas sayılan üst geyimi əba da çox yayılmışdı. Qabaqkı əbalardan fərqli olaraq, bunlar bədəndə kip oturur, qolları nisbətən dar olurdu. Həmin dövrün miniatürlərində biz belə əbaların ətəklərinin kəmərə sancılaraq gəzdirildiyini də görürük.

Əbanın belə gəzdirilməsi çox güman ki, əvvəllər əməli əhəmiyyətə malik imiş (tələsik yeriyəndə və ya iş görəndə ətəkləri ona maneçilik törətməsin). Sonralar isə bu (moda) dekorativ bir element olaraq qalmışdır. Bu əbalar da iki cür olurdu: birisi soldan sağa gətirilib sağ qolun altında qaytanla bağlanır, ikincisi isə qabaqdan düyünlənirdi.

XVI əsrdə Təbrizdə, Şamaxıda, Naxçıvanda və Bakıda nisbətən varlı cavanlar qısaqollu gödək üst geyimləri geymişlər. Bu geyimləri ən çox ova gedəndə və ya uzaq bir səfərə çıxdıqda geyərdilər. Kişilər ayaqları dar, yuxarı getdikcə çox enləşən şalvar geymişlər. Şalvarlar da üst köynəyin malından tikilərdi, lakin rəngi çox vaxt göy və ya tünd-sarı olurdu.

XVI əsrdə kişi ayaqqabıları da müxtəlif formalı olmuşdur. Ən çox yayılmış kişi ayaqqabısı yumşaq dəridən tikilən dabansız (bəzən də alçaq dabanlı) və uzunboğaz (yüngül) çəkmələr idi.

Bu dövrdə əhalinin kasıb təbəqəsi arasında ən çox işlənən ayaqqabı çarıq olmuşdur. Çarıqlar inək və ya dəvə dərisindən hazırlanırdı. Təbriz miniatürlərində, az da olsa, bu cür ayaqqabılara rast gəlirik.



Şəkil 14, 15

XVI əsrdə Azərbaycanda qadın üst geyimləri də müxtəlif olmuşdur. Lakin bu geyimlər formalarına görə, həmin dövrün kişi geyimlərini xatırladır.

Kişilər kimi, qadınlar da (xüsusən varlı təbəqələr) çiyinlərinə bəzək üçün uzunqollu xələt salarmışlar. Lakin qadın xələtləri daha sadə olub az naxışlarla bəzənərdi. Qadınlar bu xələtin altından lap dabanlarına qədər sallanan uzun köynəklər geyərdilər. Köynəklər yaxadan bir neçə yerdən iri düymə ilə düymələnərdi. Kişi donlarından fərqli olaraq, qadın donlarının yaxalığı bəzən başqa parçadan da ola bilirdi (şəkil 14, 15).

Qadınların o dövrdə uzun don geyməlırini, yeriyəndə ətəklərini əlləri ilə tutub getmələrini dahi Azərbaycan şairi Füzuli bir neçə əsərində təsvir etmişdir.

XVI əsrdə kütləvi surətdə geyilən qadın əlbəsələrindən bir də dabana qədər uzanan şalvarlar idi. Kişilərdə olduğu kimi, qadınların da şalvarları ayaq tərəfdən çox dar, yuxarısı enli olurdu. Lakin kişi şalvarından fərqli olaraq, qadın şalvarının ayaqlığı iki-üç barmaq enində başqa bir qalın parça ilə tikilərdi. Qadın şalvarının, həmçinin beldən büzməsi olardı ki, onun da içindən qəşəng hörmə qaytan keçirib bağlardılar (şəkil 16). Qadının öz zövqünə müvafiq olaraq bu qaytanın ucundan sallanan qotazlar müxtəlif rəngdə olardı. Bu dövr üçün xarakterik cəhət - üst geyimlərə (xələt, əba, don) beldən bağlanan qurşaqlar idi. Qurşaqları həm kişilər, həm də qadınlar bağlayardı. Təbriz miniatürlərində biz bu qurşaqların müxtəlif növlərinə rast gəlirik. Qurşaqlar ipək parçadan yaxud qızılı və gümüşü saplarla toxunmuş xara parçalardan hazırlanırdı. Daha çox bəyənilən qurşaqlar qızılı, sarı, yaşıl, narıncı rəngdə olardı. Bu qurşaqların uzunluğu çox vaxt 4-5 m, eni isə 40-50 sm-ə çatardı. Qurşaqların ucu qəşəng enli qotazlarla bəzənərdi.[11]



Şəkil 16

Yuxarıda təsvir edilən geyimlər XVI əsrdə Azərbaycanda əsas geyimlər sayılır. Qeyd edilməlidir ki, burada təhlil olunan geyimlər əsas etibarı ilə yüksək və orta təbəqəyə mənsub olanların geyimləridir; çünki istər miniatürlərdə, istərsə də yazılı ədəbiyyatda ən çox bu sahə təsvir olunmuşdur. Aşağı təbəqənin geyimləri barədə nə səyyahlar, nə də rəssamlar bizə məlumat verməmişlər. Lakin güman etmək olar ki, o zamankı insanların - istər zadəgan, istərsə də «aşağı təbəqədən olsun - geyimlərində biçim etibarı ilə o qədər də fərq olmamışdır. Malın keyfiyyəti, təbiidir ki, hər zaman təbəqələşmə meyarı kimi qəbul edilmişdir. Məsələn, yuxarı təbəqədən olanlar hansı dəbdə paltar geymişsə, kəndli və sənətkarlar da, əsasən, o formada paltar və ayaqqabı geyər, papaq və ya çalma qoyardılar. Bunların fərqini onların bəzəyində və tikildiyi materialın çeşidində axtarmaq lazımdır.

Qüdrətli Azərbaycan dövlətinin XVII əsrdə zəifləməsi, get-gedə iranlıların əsarəti altına düşməsi geyimlərin də inkişafına təsir göstərmişdir.

Düzdür, Şamaxı, Təbriz, Naxçıvan, Dərbənd, Bakı və s. şəhərlər hələ də beynəlxalq ticarətdə öz mövqelərini saxlamaqda idi. Bunu biz o dövrdə Azərbaycanda olmuş xarici ölkə səyyahlarının gündəliklərindəki qeydlərdə də görürük. Bu qeydlərə görə, o zaman təkcə Şamaxıda rus, erməni, polyak, ingilis və hind tacirlərinin ticarət məhəllələri var idi.

[11] Azərbaycanlılardan fərqlənmək üçün erməni və yəhudilər daha enli qurşaq bağlardılar.

Fransız səyyahı; Şardenin yazdığına görə, Təbriz öz böyüklüyü, əhalisinin çoxluğu, sərvəti və mal dövriyyəsi etibarı ilə İsfahandan sonra yaxın Şərqdə ikinci yeri tuturdu.

Bütün bunlara baxmayaraq Təbriz, Şamaxı, Naxçıvan və s. şəhərlərdə hazırlanan parçaların və tikilən libasların keyfiyyəti XVI əsrə nisbətən aşağı səviyyədə idi. Həmin əsrdə hətta parçalara da zəif naxışlar vurulmuşdur. Bu parçalardakı XVI əsr naxış elementləri: gül, çiçək, quş, heyvan, hətta insan təsvirləri əvvəlki rəsmlərə xas olan incəlik və şairanəliyini itirmişdir.

Bu dövrdə hazırlanan parçalarda Qərbi Avropa naxışları elementlərinə də rast gəlinir.

XVII əsr parça istehsalının, eləcə də onun bəzəklərinin solğunluğuna baxmayaraq, geyim tərzləri bütünlüklə XVI əsrin geyimlərini xatırladır. Bunu təsdiq edən çoxlu təsviri sənət nümunələri vardır. Bakıda əlyazmaları fondunda, Naxçıvanda Bəhruz Kəngərli adına ölkəşünaslıq muzeyində saxlanılan Azərbaycan miniatürləri dediklərimizə sübut ola bilər.



Şəkil 17

XVII əsrdə Azərbaycanda olmuş səyyahların geyim barədə qeydləri çox maraqlıdır. 1647-ci ildə Təbrizdə olmuş məşhur türk səyyahı və diplomatı Övliya Çələbi yazır: «Təbriz zadəganları al-qırmızı rəngli parçadan çalma geyir. Qızılbaş sözü də elə buradan doğulmuşdur. Lakin əhalinin əksəriyyəti çalmanı ağ parçadan düzəldir». Bu fakt XVII əsrdə hələ də məşhur «qızılbaş» geyim tərzlərinin davam etdiyini göstərir. Ümumiyyətlə, Azərbaycanda o dövrdə istehsal olunan parçalar əvvəlkinə nisbətən zəif olsa da, türk diplomatı Övliya Çələbini öz gözəlliyi ilə valeh etmişdir, O öz qeydlərinin birində Naxçıvanı təsvir edərək, oradakı qadın geyimləri haqda belə deyir: - «Buranın qadınları həddindən gözəl qiymətli üst paltarı geyir və kişilərlə camaat arasında açıq söhbət edirlər» (şəkil 17). Şamaxıda yaşayan fransız misioneri Rikar 1685-ci ildə öz məktubunda yazır: «Onların (şamaxılıların) libası qalın yun parçadan tikilib genqollu xələti xatırladır ki, bunun da altından, adətən, gen köynək geyirlər (şəkil 18). Onların ayaqqabısı öküz, qaban gönündən tikilib, hər iki tərəfdən ayağa qaytanla möhkəm bağlanır». Burada oba və XX əsrin əvvəllərinə qədər Azərbaycan kəndliləri arasında geniş yayılmış çarıqdan da bəhs edilir. XVIII əsrin əvvəllərində Azərbaycanda təsərrüfatın tənəzzülü daha da qüvvətlənmişdi. Zəhmətkeş əhalinin amansız istismar edilməsi, vergilərin artması və İran feodallarının talançılıq siyasəti ölkənin məhsuldar qüvvələrini dağıdırdı.



Şəkil 18

Feodal özbaşınalığı hər sahədə özünü göstərirdi. Ticarətin genişlənməsinə mane olan daxili çəkişmələrə qarşı mübarizədə dövlətin acizliyi tacirlərin daim narazılığına səbəb olurdu.

Saysız-hesabsız vergilər şəhərlərin zəhmətkeş kütlələrini boğur, var-yoxdan çıxarır, dilənçi halına salırdı.

XVIII əsrin ortalarında bir çox xalq üsyanları nəticəsində Azərbaycan yadellilərin istilasından azad olur.

XVIII əsrin ikinci yarısı Azərbaycan tarixində xanlıqlar dövrü kimi adlanır. Azərbaycan geyimlərinin sonrakı inkişaf dövrü də həmin bu vaxta düşür.

Bakı, Quba, Şamaxı, Qarabağ, Naxçıvan, Gəncə, Dərbənd, Təbriz və s. bu kimi müstəqil xanlıqların əmələ gəlməsi geyim məsələlərinə də az təsir etmirdi. Xanlıqların belə xüsusi çərçivədə, başqa-başqa siyasi və iqtisadi vəziyyətdə yaşamaları geyimin (üzdən də olsa) dəyişməsinə səbəb olmuşdu. Bu dəyişiklik əsas etibarı ilə geyimin biçimi və siluetində deyil, onun tikildiyi malda və bəzəklərində idi.

Azərbaycanda bu dövrdə ümumi bir mərkəz olmadığından, bir çox xanlıqlarda istehsal olunan parçalar qonşu ölkələrə satılır və ya öz içərisində istifadə edilirdi. Bu zaman Şamaxıda gözəl ipək məmulatı, Təbrizdə yun parça, Qubada pambıq parça, salyanda ağ və zolaqlı bez və s. istehsal olunurdu. Beləliklə, istehsal olunan parçalardan asılı olaraq, onların bəzəkləri də müxtəlif olurdu.

Adətən, parça üzərindəki tikmələr və ya əl ilə düzmələr (buradan da «təkəlduz» - sözü əmələ gəlmişdir) öz təbiəti etibarı ilə yerliyi ağıryana olan parçaları sevir (məxmər, mahud, ipək parça). Odur ki, biz bu dövrdə bəzi xanlıqlarda çox bəzəkli, bəzilərində isə nisbətən az naxışlı geyimlərə rast gəlirik.

Əgər bütün bu xırdalıqları atsaq, XVIII əsr geyim tariximizin qədimlərdən gələn irsimizlə möhkəm bağlı inkişaf etdiyini aydın görərik. Lakin bununla yanaşı, o dövrdə gündən-günə inkişaf edən bir çox yeniliklərə də rast gəlirik.


Şəkil 19

XVIII əsrdə Azərbaycanlıların milli geyim və bəzəklərinin inkişafını öyrənmək üçün əsas məxəzlərdən biri də təsviri sənət əsərləridir.

XVIII əsr Azərbaycan geyimlərini, xalqa xas olan duruş və hərəkətlərini, onların adət və məişətini əks edən abidələr içərisində Nuxa Xan sarayının divar rəsmləri və Əvəz Əli Muğaninin bu dövrdə yaratdığı bir çox əsərlər Azərbaycan geyimləri tarixinin öyrənilməsi üçün ən gözəl və etibarlı mənbələrdən hesab olunur (şəkil 19). Əgər biz yuxarıda adlarını çəkdiyimiz XVIII əsr təsviri sənət nümunələrindəki Azərbaycan geyimlərinin əksini muzeylərimizdə saxlanılan XIX əsrin ortalarına aid olan geyimlərlə müqayisə etsək, onların, demək olar ki, eyni olduğunu görərik. Bu da o dövrdəki geyimin tədqiqat işini faktiki materiallarla təmin edir və geyim haqda XIX əsrin

ortalarında yaradılmış yeni maraqlı təsviri sənət mümunələri ilə tanış olmağa imkan verir.

Tarixdən məlumdur ki, XIX əsrin ortalarında Azərbaycanda müxtəlif ölkələrin bir çox rəssamları olmuşdur. Onların Azərbaycanın tarixi abidələrini, həyat və məişətini, tiplərini əks edən rəsmləri dünyanın bir çox ölkələrində yayılmışdır.

1846-1848-ci illərdə fransız rəssamı Jül-Laurens Azərbaycana gələrək o vaxtlar Parisdə nəşr olunan «Xəzər dənizi sahilləri» kitabı üçün illüstrasiyalar çəkmişdir. Jül-Laurens tərəfindən çəkilmiş şəkillər içərisində həm kompozisiyasına, həm də tiplərinə görə maraqlı olan «Səfil dərvişlər», «Kəndirbazlar», «Təbrizdə dini mərasim» və s. rəsmləri Avropa rəssamının Azərbaycanı mükəmməl öyrənməsini, yerli tipləri və onların güzəranını doğru təsvir etdiyini sübut edir.

XIX əsrin ortalarında Azərbaycana gəlmiş və öz rəsmlərində Azərbaycan xalqının həyat və məişətini əks etdirən rus rəssamlarının əsərləri xüsusilə maraqlı və qiymətlidir. Rus rəssamları içərisində bizi ən çox maraqlandıran V. V. Vereşşakin və Q. Q. Qaqarinin yaradıcılığıdır.

Azərbaycanın bir çox şəhərlərində, o cümlədən: Bakıda, Şamaxıda, Nuxada, Gəncədə, Qazaxda olmuş bu rəssamlar o zamankı geyim haqda çox qiymətli mənbə qoymuşlar. Ələlxüsus Q. Qaqarinin sonralar Parisdə nəşr etdirdiyi «Qafqaz geyimləri» adlı albomu Azərbaycan geyimi barədə xeyli material verir.

Bütün bu təsviri sənət əsərlərindəki geyimləri Azərbaycanda XVIII əsrdə olmuş səyyahların geyim haqda qeydləri ilə müqayisə etsək, onların eyni olduğunu görərik. Buradan da belə bir nəticəyə gəlirik ki, XVIII əsrin ortalarına qədər Azərbaycanda geyim tərzi, demək olar ki, eyni səviyyədə inkişaf etmişdir. Bu barədə XVIII əsrin axırlarında Azərbaycanda olmuş səyyah Marşall Fon Biberşteynin qeydləri xüsusilə qiymətlidir.

Beləliklə, Azərbaycanda olan səyyahların və o dövrün yazılı ədəbiyyatının geyim barədəki qeydlərinə, habelə təsviri sənət nümunələrinə əsasən XVIII əsr geyimləri haqqında müəyyən fikir söyləyə bilərik.

XVIII əsrdə Azərbaycanda kişilər üstdən uzunqollu, bədənə kip oturan çuxa geyərdilər. Çuxa əsas etibarı ilə qalın parçadan tikilərli. Geyən şəxsin yaşından asılı olaraq bu çuxanın rəngi və boyu başqa-başqa olardı. Cavanlar nisbətən gödək və açıq rəngli, qocalar isə qara və ya başqa tünd rəngli, uzunətəkdi çuxa geyərdilər. Bu dövrdə üstdən enli, uzunqollu əbalar da işlənmişdir. XVIII əsrdə obanı əvvəlki dövrlərə nisbətən, əsas etibarı ilə mollalar və hörmətli qocalar geyərdilər.

Azərbaycanın soyuq yerlərində, xüsusən qışda qəşəng biçimdə tikilmiş, boynundan tutmuş ətəklərinə qədər rəngli ipək saplarla naxışlanmış kürk geymişlər. Bu kürklər əsasən qoyun dərisindən olub, yunlu tərəfi içəri tikilərdi.

Çuxanın, əbanın və kürkün altında uzun və darqollu, bədəndə kip oturan arxalıq olurdu. Ümumiyyətlə, arxalıq gözəl biçimdə tikilərdi. Nisbətən varlı



Şəkil 20, 21, 22, 23

şəxslərin arxalıqları böyük zövqlə qızılı və gümüşü saplarla naxışlanardı. Arxalıq qabaq tərəfdən - uzununa tutmuş yumru ipək və sair parçalardan tikilmiş düymələrlə və ya kiçik parça bəndlərlə bağlanardı. Çox vaxt bunun da üstündən beldən nazik gümüş kəmər və ya qurşaq bağlanardı. (şəkil 20, 21, 22, 23).

Kişi geyimlərini tamamlayan hissələrdən biri də şalvar idi. Şalvarlar, XVI əsrdə olduğu kimi, yenə də aşağıdan dar, yuxarı getdikcə enlənərdi. Bu şalvarlar beldən hörmə, ucları rəngli qotazlı bağlarla bağlanardı. XVIII əsrdə kişi ayaqqabıları da çox müxtəlif olmuşdur. Ən çox işlədilən kişi ayaqqabıları dəridən tikilmiş dabansız kiçik başmaqlar idi. Bu zaman dövlətlilər arasında nazik dəridən tikilmiş uzunboğaz çəkmələr və kəndlilər tərəfindən lap qədimdən tutmuş XX əsrin əvvəlinə qədər geyilən çarıqlar da var idi (şəkil 24, 25).



Şəkil 24, 25

XVI əsrdə yayılmış adi araqçınlar enli və üstü yastı ağ çalmalar ilə yanaşı, XVIII əsrdə yeni bir baş geyimi meydana çıxmışdı. Quzu dərisindən tikilmiş uzun, şişbaşlı bu papaqlar XIX əsrin ortalarına kimi ən geniş yayılmış baş geyiminə çevrilir. Bəzən gözəl görünmək üçün papaqların aşağı hissəsinə qiymətli ağ və zolaqlı parça dolayırdılar. Belə papaqlar, əsasən, Şuşada tikilərdi.

Bu dövrdə kişi bəzəkləri üzük, qurşağa taxılan və ya nazik gümüş kəmərdən açılan xəncər olmuşdur (şəkil 26, 27). Xəncəri XVIII əsrdə, demək olar ki, bütün kişilər gəzdirərdilər. Bunun əsas səbəbi gözəllik üçün deyil (XIX əsrin axırlarında olduğu kimi) qaçaq və quldurlardan özünü qorumaq üçün idi. Bu fikri XVIII əsrin axırlarında Azərbaycanda olmuş səyyah Marşall Fon Biberşteyi də təsdiq edir. O yazır: «Hətta kəndlilər çöldə işlədikləri vaxtda da xəncərləri yanlarında olur».



Şəkil 26, 27

XVIII əsrdə qadın geyimləri kişi geyimlərinə nisbətən daha gözəl və zövqlə hazırlanırdı. Marşall Fon Biberşteyn yazır: «kişilər etdiyi kimi, bu ölkənin gözəl qadınları da heç də zinətdən əl çəkməyirlər».

Azərbaycan qadınlarının yüksək zövqlə geydiyi libaslara böyük şairimiz Molla Pənah Vaqifin şerlərində də rast gəlirik. Öz dövrünün qadın bəzək və geyimlərinə valeh olan Vaqif bir çox şeirlər yazmışdır.



Şəkil 28, 29, 30, 31

Əlbəttə, bu qiymətli və gözəl geyimləri bütün qadınlar deyil, ancaq yuxarı təbəqəyə mənsub olanlar geyərdilər. Lakin kişilərə nisbətən qadınların daha zövqlə geyindikləri aydın görünür. XVIII əsrdə qadınlar ilin soyuq aylarında əyinlərinə üstdən uzunqollu, gödək çəpkən, topuqlarına qədər uzanan arxalıq, qolsuz, boynu, ətəkləri və qol yerləri xəzdən tikilmiş kürdü və ya küləcə adlı paltar geyərdilər (şəkil 28, 29, 30, 31).

***Çəpkən*** əsas etibarı ilə qalın parçadan tikilərdi. Daha geniş yayılmış çəpkənlər qırmızı və yaşıl məxmərdən olardı. Onun yan tərəflərində aşağıda çapıq adlanan qabarıq hissələri olurdu ki, bu da bədənin daha da gözəl görünməsinə imkan verirdi.

Qadınlar arasında çox yayılmış geyimlərdən biri də arxalıq idi. Bunlar kişi arxalıqlarından, əsasən, öz gödəkliyi və üstünün gözəl bəzəkləri ilə fərqlənirdi.

Qeyd etmək lazımdır ki, arxalıq, eləcə də başqa qadın üst geyimlərinin qolları altında çapıq (kəsik) olardı. Bu çapıqlar qolun rahat hərəkət etməsi və isti havalarda tərləməməsi üçün idi.

Kürdünü ən çox məxmər, tafta və tirmədən tikərdilər. Qış fəslində gerildiyi üçün boynu, yaxası və ətəklərində xəz olardı. Kürdü döşdən mis və ya gümüş qarmaqlarla bağlanardı. Geniş yayılmış kürdülər qırmızı məxmərdən, üstü bafta ilə bəzənmiş olardı.

Bütün bu üst geyimlərinin altında qadınlar uzun və enliqol köynək geyərdilər. Kübar qadınlar bu köynəyi ipəkdən, kasıblar isə bezdən tikdirərdilər. Yaşlarından asılı olaraq qadınların geydikləri köynəklərin rəngi də müxtəlif olurdu. Qızlar və gəlinlər sarı və qırmızı güllü parçadan, yaşlı və qoca qadınlar isə ağ və ya qara rəngdə köynək geyərdilər. XVIII əsrdə qadınlar çox uzun və enli, üstbəüst bir neçə tumanda gəzərdilər. Lap birinci üst tumanın ətəyi iki-üç barmaq enliyində, ümumiyyətlə tirmə və ya rəngli qalın parçadan tikilərdi. Qadın ayaqqabısı (nəlein, başmaq və s.) formaca bəzi kişi ayaqqabısına bənzəyirdisə də, onlardan öz zərif biçimi və gözəl bəzəkləri ilə ayrılırdı (şəkil 32). Nisbətən kübar qadınların ayaqqabılarının içərisi dabandan tutmuş pəncəyə qədər nəbatat aləmindən götürülmüş naxışlarla bəzənmiş gümüş parçası ilə örtülərdi. (Respublikamızın bir çox muzeylərində saxlanılan belə qadın ayaqqabıları buna misal ola bilər.)



Şəkil 32

XVIII əsr qadın baş geyimləri də, əvvəlki dövrlərdə olduğu kimi, çox müxtəlifdir.

Bu dövrdə ən çox yayılmış baş geyimlərindən biri araqçın idi. Lakin bu araqçınlar XVI əsrdəki araqçınlardan arxa tərəfə hörük torbasının olmaması ilə fərqlənirdi. İndiki araqçınlar daha bəzəkli olardı. Bu dövrdə qızıl və gümüş saplarla naxışlanmış güləbətin tikməli araqçınlar xüsusilə geniş yayılmışdı.

Bu araqçınların qabaq tərəfindən - alından silsilə adlanan qızıl, gümüş hissəciklərindən düzəldilmiş bəzəklər asardılar. Belə bəzəklər Qarabağda, Qazaxda, Ərdəbildə və s. yerlərdə yayılmışdı. Bakıda, Şamaxıda, Təbrizdə isə qadınlar belə araqçınların qabağından kiçik tacı andıran ***çutqabağı*** XVIII əsrdə ən çox yayılmış qadın baş geyimlərindən biri də əmmaməyəbənzər baş geyimi idi. Əmmaməni geymək üçün qadınlar kişilər kimi başlarına araqçınabənzər, lakin adi araqçınlardan xeyli hündür və bərk parçadan tikilmiş papaq qoyar və onun ətrafına parça dolayardılar. Kişilərdən fərqli olaraq qadınlar əmmamənin axırıncı çənələrinin üstündən gətirərək yaşmaq kimi ağızlarının üstündə bağlayardılar.



Şəkil 33, 34



Şəkil 35



Şəkil 36, 37

Bunu da qeyd edək ki, belə əmmaməyəbənzər qadın baş geyimlərini Azərbaycanın ucqar yerlərində - çarşabsız gəzən qadınlar geyərdilər, çünki yaşmaq özü burada qadının üzünün aşağı hissəsini bütünlüklə örtərək çarşabı əvəz edərdi (şəkil 33, 34).

Əlbəttə, çadraya görə belə baş geyimi açıq gəzmək cəhətdən xeyli irəliləyiş idi. Bunda qadın özünü sərbəst hiss edir, işlədiyi vaxt ona heç bir şey mane olmurdu. XVIII əsrdə qadın bəzəkləri də çox müxtəlif olmuşdur (şəkil 35).

Ümumiyyətlə, qiymətli metallardan düzəldilmiş qızıl-gümüş, qaş-daş qadın bəzəkləri, gəzdirilməsi və geyinilməsinə görə, 4 hissəyə bölünür: 1) boyun bəzəkləri, 2) qol və barmaq bəzəkləri, 3) baş bəzəkləri, 4) libaslara bənd olunan bəzəklər (şəkil 36, 37).

Azərbaycan qadınları tərəfindən sevilən ən qədim bəzəklərdən boğazaltı, çəçik, qarabatdaq və s. göstərmək olar. Bunların içərisində ən çox yayılmış qiymətli muncuq, mirvarı və ya «arpa» adlanan uzunsov formalı, qızıldan düzəldilmiş boyunbağıdır. Bu boyunbağının ortasından gözəl naxışlarla bəzənmiş sinə üzərinə daha bir dairə formasında hissə bənd edilib sallanardı.

Bəzən bu bəzəkli dairə əvəzinə, xara üsulu ilə işlənmiş altı və ya səkkizguşəli, ortasında yaqut və ya firuzə qaşı olan ulduz, onun da altını tamamlayan aypara yerləşdirilərdi.

Qol və barmaq bəzəklərini, əsas etibarı ilə, qolbaq və üzüklər təşkil edir.

Qadın baş bəzəkləri Azərbaycanın daha çox o yerlərində inkişaf etmişdir ki, orada qadınlar lap qədim dövrdən çarşabsız gəzmişlər. Bu, əsas etibarı ilə, başlarına əmmamə qoyan qadınlarda olurdu. Əmmamə başda möhkəm durmaq və gözəl görünmək üçün onun üstündən iki cərgə zəncirlə bir-birinə bənd olunmuş gümüş-qızıl pullar və ya üstü naxışla bəzənmiş dəyirmi gümüş, qızıl sikkələr taxardılar. Libasları bəzəyən zərgərlik şeylərini üst geyimlərinin qollarına, ətəklərinə, yaxalarına və bellərinə bərkidərdilər (şəkil 38).



Şəkil 38

Belə bəzəklərdən basma üsulunda işlənmiş qızıl pərdələri, «kəsmə» adlı paxlava formasında qabarıq, gümüş və ya qızıl muncuqlardan ibarət silsilələri göstərmək olar.

XIX əsr, Azərbaycan milli geyimlərinin get-gedə dəyişməsi və sıradan çıxması ilə səciyyələnir.

Tarixdən məlumdur ki, XIX əsrdə Azərbaycanın Rusiya ilə birləşməsi ticarətin, eləcə də sənayenin inkişafına böyük təsir göstərmişdir. Keçən əsrin axırlarında Bakı şəhəri Rusiyanın sənaye mərkəzlərindən birinə çevrilməyə başlamışdı. Şəhərin gündən-günə böyüməsi, fabrik və zavodlarının artması çoxlu fəhlə qüvvəsi tələb edirdi. İş axtarmaq üçün Azərbaycanın hər yerindən Bakıya gələn bu adamlar, fabrik və zavodlarda, neft mədənlərində çalışmalı olurdular. Bununla əlaqədar olaraq yeni bir paltar fəhlə paltarı meydana çıxırdı.

Artıq gündən-günə öz simasını itirmiş köhnə libaslar Rusiyadan gətirilmiş ucuz parçalarla əvəz olunurdu. Bu yeni, sadəbiçimli, bərbəzəksiz paltarlar get-gedə məişətə daxil olurdu ki, bu da tədricən rayonlara, oradan da kəndlərə yayılaraq bütünlüklə milli geyimin sıradan çıxmasına səbəb olurdu.

«Bu surətlə, Rusiya kapitalizmi Qafqazı dünya əmtəə tədavülünə cəlb edirdi, onun yerli xüsusiyyətlərini - qədim pədərşahi qapalılıq qalıqlarını aradan qaldırır və öz fabrikləri üçün özünə bazar yaradırdı. İslahatdan sonrakı dövrün əvvəllərində əhalisi az olan və ya əhalisi dünya təsərrüfatından və hətta tarixdən də kənarda qalmış dağlılardan ibarət olan bir ölkə - neft sənayeçiləri, şərab alverçiləri, buğda və tütün fabrikçiləri ölkəsinə çevrilirdi və rəhmsiz Kupon cənabları məğrur dağlının şairanə milli paltarını soyundurub ona avropalı bir lakey paltarı geydirirdi»[12].

Beləliklə, görürük ki, milli geyimlərin sıradan çıxması kiçik, yerli kustar sənayesinin güclü, iri kapitalist sənayesi tərəfindən məhv edilməsi ilə əlaqədardır.

Lakin bu dəyişiklik özü də birdən-birə baş verməmiş və asanlıqla əmələ gəlməmişdir.

---

[12] V.İ.Lenin. "Rusiyada kapitalizmi inkişafı". Seçilmiş əsərləri, cild III, səh. 580, Bakı, 1948-ci il.

Məsələn, XIX əsrin ortalarında Dağıstandan keçmiş çərkəzi arxalıqlar XIX əsrin axırlarınadək yerli geyim kimi üstünlük təşkil edir və geniş yayılmış üst libasına çevrilir. (Bununla əlaqədar olaraq şalvar və ayaqqabılar da dəyişmişdi.)

Bu dövrdə qadın geyimləri də yeni əlavələr qəbul edirdi. Qafqazda olan rus zabitlərinin, eləcə də xaricdən gəlmiş dövlətli şəxslərin qadınlarındakı bəzəkləri görən Azərbaycan qadınları getdikcə onları mənimsəyir və sonralar öz geyimlərində istifadə edirdilər. Beləliklə, XIX əsrin ortalarında Azərbaycanın kübar qadınlarının geyimlərində krujeva, plisse və s. bu kimi yeni bəzəklər meydana çıxır ki, bu da milli geyimin ümumi biçiminə təsir edərək onu dəyişdirirdi.

XIX əsrin axırlarından başlayaraq şəhərdə yaşayan dövlətli şəxslərin arvadları Qərbi Avropa tufliləri geyirlər.

Bu dövrdə yerli burjuaziya geyimin bütünlüklə avropalaşması tərəfdarı idi. Onlar hətta 1908-ci ildən etibarən Bakı mətbuatında çadra və köhnə geyim əleyhinə çıxış etməyə başlamışdılar. Fanatik ruhanilər və köhnəliyin tərəfdarları isə tamamilə əks cəbhə tutub, bu xeyirxah təşəbbüsə qarşı çıxır, ardıcıl mübarizə aparırdılar. Bu münasibətlə Bakı qoçuları da səfərbər edilmişdi. İrticaçıların tapşırığı ilə muzdlu qatillər Avropa tuflisi geyən qadınları küçədə saxlayaraq zorla ayaqqabılarını çıxartdırır və məhz bu məqsədlə plakatlar buraxırdılar ki, bunun da üzərində, Avropa çəkməsi və ürəyə sancılmış xəncər şəkli vardı[13].

Lakin milli geyim tərzlərinin avropalaşması çətinliklə də olsa, tədricən həyata keçirdi. Bu dəyişiklik xüsusilə Bakıda çox hiss olunurdu. Azərbaycanın ucqar şəhər və kəndləri isə hələ də kiçik kustar sənaye çərçivəsində idi; əvvəlki geyimləri saxlayır, heç də köhnə ənənələrdən uzaqlaşmaq istəmirdi.

Batum əmək məktəbinin müəllimi A. Zaxarovun XIX əsrin axırlarındakı maraqlı qeydləri bu dövrü yaxşı xarakterizə edir.

«Mənim ali savadlı, çox mədəni bir azərbaycanlı dostum var. Onun həyat yoldaşı da institutu qızıl medalla bitirmiş savadlı qadındır. Onların qızı da Tiflisdə institutda oxuyur. Onlar kənddə olan mülklərində yaşayırlar. Tənkdənbir Bakıya gəzməyə gedirlər. Yaxınlarda onları Tiflisdə gördüm. Dostumun rəfiqəsi bütünlüklə Qərbi Avropa libası geymiş, o şəkildə qonaq gedir və ümumiyyətlə, özünü sərbəst hiss edirdi, halbuki kəndə qayıdan kimi qədim Azərbaycan libası geyir, hərəmxanadan kənara çıxdıqda çadraya bürünür, dırnaqlarına xına qoyur, bir sözlə, əsil Azərbaycan qadınına xas olan həyat sürür.

Əri isə kostyum və çəkməsini bir qırağa qoyub uzun çuxa, arxalıq və papaq geyir. Onlar başqa cür hərəkət etsə idilər, camaatı «pis yoldan» uzaqlaşdırmaq üçün cənfəşanlıq edənlərin qəzəbinə uğrayardılar».[14]

---

[13] Plakatın mənası: kim Avropa tuflisi geysə öldürüləcək! (Red: qeydi.).

[14] Сборник материалов для описания местностей и племен Кавказа, вып. XX. Тифлис, 1894, səh. 147.

Beləliklə, Azərbaycan milli geyimlərinin dəyişməsi qabaqca Bakıda, sonralar isə tədricən ucqarlara yayılaraq həyata keçir.

Bununla, Azərbaycanın milli geyimləri XX əsrin əvvəllərində bütunlüklə sıradan çıxır. Düzdür, hələ də Azərbaycanın bəzi rayon və kəndlərində qədim milli geyimlərimizin bir çox fraqmentlərinə rast gələ bilirik, lakin bunlar milli geyimlərimiz haqqında konkret təsəvvür verə bilmir.

Ənənəvi Azərbaycan geyimləri hazırda ancaq bayramlarda, festival günlərində, xalq çalğı və oyun ansambllarında, eləcə də tarixi əsərlərin kinoteatrlarda göstərilməsində istifadə edilir.

Geyim tariximizin öyrənilməsi, əlbəttə, bununla bitmir, bu maraqlı sahə böyük tədqiqat işi tələb edir. Bunun hərtərəfli öyrənilməsi nəinki rəssamlarımıza, həmçinin xalq təsərrüfatı tərəfindən buraxılan parça, geyim və bəzəklərin daha da gözəlləşdirilməsində, qədim ənənələrimizin proqressiv tərəflərindən istifadə edən sənətkarlarımıza da kömək edə bilər. Lakin keçmiş xalq incəsənətinin köhnəlmiş, indiki dövrə uyğun olmayan sahələrini deyil, onun əsrlər boyu sınanmış gözəl nümunələrini, müasir dövrümüzə, xalqın indiki həyat və məişətinə, habelə estetik zövqünə uyğun gələnlərini götürüb istifadə etmək lazımdır.

Həyat gözəldir və bizi əhatə edən predmetlər də gözəl olmalıdır.

Marks demişdir ki, insan, gözəlliyin özünə xas olan qanunlarına uyğun surətdə yaradır. Marksın bu sözləri keçmişin ən yaxşı xalq yaradıcılıq abidələrinə həsr olunub, müasir sovet tətbiqi incəsənət əsərlərində daha artıq dərəcədə əks edilməlidir.

## İstifadə edilmiş ədəbiyyatın siyahısı

***F. Engels*** – Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi. K. Marks, F. Engels. Seçilmiş əsərləri. İkicildlik, cild II, Azərnəşr, Bakı, 1953.

***V. İ. Lenin*** – Rusiyada kapitalizmin inkişafı. Seçilmiş əsərləri, cild III, Azərnəşr, Bakı, 1948.

***Qazıyev S. M.*** – Mingəçevirdən tapılmış bəzi silahlardan. Azərbaycanın maddi mədəniyyəti, cild II. Bakı, 1951.

***Адлер Б. Ф.*** – От наготы до обильных одежд. Berlin, 1923.

***Алекперов А. К*** - Женская одежда Азербайджана XIX в. Научный архив Института истории АН Азерб. ССР. Инв. № 3531 - № 3534.

***Ашурбейли С. Б.*** - Ремесло и торговля в ранне-средневековых городах Азербайджана. «Труды музея истории Азербайджана», т. II. Баку, 1957 г.

***Бартольд В. В.*** - Культура мусульманства т. II. 1918 г.

***Верещагин В. В.*** - Очерки, наброски, воспоминания из путешествии по Закавказскому краю. СПБ – 1883 г.

***Герман Вейс*** - Внешний быт народов с древнейших до наших времен. Петербург - Москва. 1873 - 1874 гг.

***Готтенрот Ф.*** - История внешней культуры народов древних и новых времен. С. Петербург - Москва. 1885.

***Гулиев Г. А.*** - «Азербайджанские вышивки». Советская этнография, № 2, 1953, АН СССР

***Денике Б.*** - Искусство Востока. Казань. 1923.

Извлечение из описаний путешествий англичан по Азербайджану в XVI в.. по изданию Хаклюта. Научный архив Института истории АН Азерб. ССР. Инв. № 522. Истории Азербайджана, т. I. 1958 г.

***Кильчевская 3. А.*** - Азербайджанский женский костюм XIX в. из селения Оджек Халданского района. «Материальная культура Азербайджана». Выи. П., АН Азерб. ССР. Баку. 195! г.

***Олеарий Адам*** - Описание путешествия в Московию и через Московию в Персию и обратно. СПБ. 1906 г.

***Пугаченкова Г. А.*** - К. истории костюма Средней Азии и Ирана XV в. И первой половины XVI в. по данным миниатюр. Рукопись хранится в архиве Института Востоковедения АН Узбек. ССР.

Сборник материалов для описания местностей и племен Кавказа. Тифлис, 1894 г.

***Соболев Н. Н.*** - Очерки по истории украшения тканей М-Л. 1934 г.

***Стасов В.*** - Миниатюры некоторых рукописей. византийских, русских, джагатайских и персидских., т. II. 1912 г.

***Латышев В. В.*** - Известия древних писателей о Скифии и Кавказе, т. I. СПБ. 1890.

***Челеби Эвлия*** - Путевые заметки. Выдержки к истории Азербайджана, научный архив Института истории АН Азерб. ССР, Инв. № 1204.

***Эфендиев Рашид*** - Материалы о цеховом устройстве и кустарных производствах в г. Нухе. 1934 г. Научный архив Института истории АН Азерб. ССР. Инв. № 10.

Эфендиев Расим Самед оглы

**ОБРАЗЦЫ МАТЕРИАЛНОЙ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА (ОДЕЖДЫ)**

(на азербайджанском языке)

Redaktoru: ***M. Müştaq***

Rəssamı: ***M. Qasımov***

Bədii redaktoru: ***M. Quliyev***

Texniki redaktoru: ***S. Mirkişiyeva***

Korrektorları: ***K. Nəzirov, H. Zeynalova***

Yığılmağa verilmiş 20/VI-1960-cı il.

Çapa imzalanmış 5/X-1960-cı il.

FQ 07883. Kağız formatı 70x92 $^{1}/_{16}$.

Fiziki çap vərəqi 2 $^{1}/_{4}$ + 2 ç. v. əlavə şəkil.

Şərti ç. v. 2,34+2,63 əlavə şəkil. Uçot nəşr vərəqi

2,4+2,2 əlavə şəkil. Sifariş № 396. Tirajı 3000.

Azərbaycan Dövlət Nəşriyyatı, Bakı. Hüsü Hacıyev küçəsi, № 6.

Azərbaycan SSR Mədəniyyət Nazirliyinin

26 komissar adına mətbəəsi, Bakı, Əli Bayramov küçəsi, № 3.



Sultan Məhəmməd. Gənc təbrizli oğlanın portreti. XVI əsr



Seyid Mir Müsəvvər. Süfrəçi Sərxan bəy portreti. Təbriz, XVI əsr.



Bədii parça. XVI əsr.



Şah Təhmasibin zamanı müharibədə qoyduğu başlıq (dəbilqə). 1528-ci il.



XVII əsrə aid ipək geyim



XVII əsrin əvvəllərində aid Azərbaycan miniatürü.



Adam Oliari. Şamaxı ətrafında, 1637-ci il.



Şah Təhmasibin müharibə zamanı qoyduğu başlıq (dəbilqə). 1528-ci il.



XVIII əsrin axırlarında yaşamış Azərbaycan rəssamı Əvəz Əli Muğaninin rəsmlərindən.



Nuxa Xan sarayı. Divar rəsmləri, XVIII əsr.



Mirzə Qədim. Məculla Mirzənin portreti, XIX əsr.



Mirzə Qədim. Qadın portreti, XIX əsr.



Qadın üst geyimi. "Küləcə". Şuşa. XIX əsr.



Qadın üst geyimi. "Küləcə". Naxçıvan. XIX əsr



Qadın arxalığı. Naxçıvan. XIX əsr.



Qadın üst geyimi. Naxçıvan. XIX əsr



XIX əsr əbası.



Qadın üst geyimi. Naxçıvan. XIX əsr.



Cülmətipli tikmə. (Şəbgulah). XIX əsr.



Bakı araqçını XIX əsr.



Bakı araqçını XIX əsr.



Qubada toxunmuş corablar. XX əsr.



Qadın ayaqqabısı. XIX əsr.



Qadın ayaqqabısı. Şuşa, XIX əsr.



Usta Məhəmməd. Gümüş kəmər. Nuxa. XIX əsr.



Gümüş kəmər. Nuxa, XIX əsr.



Qadın üst geyimi (fraqment). Şuşa. XIX əsr.